https://doi.org/10.59849/3006-1318.2025.2.81
UOT 745.523 (479.24)

*T.H.Mirzəyev, R.X.Aslanova, S.C.Məmmədova*
*AR Elm və Təhsil Nazirliyi*
*Azərbaycan Texnologiya Universiteti*
*Gəncə ş. Ş.İ.Xətai pr., 103*
*E-mail: raisaaslanova77@gmail.com*
*s.memmedova@atu.edu.az*

# AZƏRBAYCAN XALÇALARININ KOMPOZİSIYASININ XÜSUSİYYƏTLƏRİ

*Məqalədə Azərbaycan əl xalçalarının bədii xüsusiyyətləri, kompozisiyasının elementləri, rəng həlli, ornamentləri, qruplar üzrə xalçaların kompozisiyası haqqında məlumatlar verilir.*

*Açar sözlər:* kompozisiya, ornament, xalça, naxış

## *Giriş*

Azərbaycan xalçalarının forma, toxunma texnikası, süjet, ornament, rəng və kompozisiya rəngarəngliyi onların tədqiqi üçün geniş meydan açır. Xalça Azərbaycan xalqının ədəbiyyatı, memarlığı, bədii miniatür və dekorativ-tətbiqi sənətinin digər növləri ilə çoxlu tellərlə bağlıdır [1]. Azərbaycan xalçaçılıq sənəti zəngin tarixi və bədii ənənələrə malikdir. Bu sənət əsrlər boyu formalaşaraq müxtəlif bölgələrə və xalçaçılıq məktəblərinə görə fərqlənən kompozisiya xüsusiyyətlərinə malikdir. Xalçaların kompozisiyası xalça sənətinin ən vacib tərkib hissələrindən biridir. Onların kompozisiyası xalçaların bədii quruluşunu, ornamentlərin sistemini, naxışların yerləşmə qaydasını, onların bir - biri ilə uyğunluğu və rəng harmoniyasını ifadə edir.

Azərbaycan xalçaları qruplara bölünərkən onların regional xüsusiyyətlərinə əsaslanır. Fərqli xalçaçılıq məktəbləri və bölgələri özünəməxsus kompozisiya ənənələrinə malikdirlər. Azərbaycan xalçaçılıq ənənəsində xalça kompozisiyası əsasən aşağıdakı hissələrdən ibarət olur: ara (mərkəzi) sahə, haşiyə zolaqları və kənar zolağı.

*Ara sahə* - xalçanın mərkəzini təşkil edən ən böyük hissəsidir və əsas naxışlar da bu hissədə yerləşir. Ara sahədə göllər, butalar, medalyonlar və digər elementlər yerləşdirilir.

*Haşiyə qurşağı* - ara sahəni əhatə edən zolaqlardır. Haşiyə zolaqları adətən müxtəlif naxışlarla bəzədilir və xalçanın ümumi kompozisiyasını tamamlayır.

*Kənar zolaqları* - xalçanın ən kənar hissələrini təşkil edən ensiz saya zolaqlardır.

Haşiyəni təşkil edən zolaqların miqdarı xalçanın kompozisiyasına görə onun ölçüsündən, əsasən də enindən asılı olaraq dəyişir və tərtib edilir. Eyni zamanda da rəng kompozisiyalarının həllində ara sahə ilə haşiyə qurşaqları arasında mütənasiblik olmalıdır [2].

Xalçaların kompozisiyasında müxtəlif ornamentlərdən istifadə olunur və kompozisiyanın müxtəlifliyi həndəsi və nəbati elementləri ilə fərqlənir.

Azərbaycan xalçalarının tarixi inkişaf yolları və texniki xüsusiyyətləri ilə yanaşı onların bədii xüsusiyyətləri və məzmunu da xüsusi qeyd edilməlidir. Xalçalarımızın bədii xüsusiyyətləri və məzmunu ən əvvəl ornamentlərdən asılıdır. Məlum olduğu kimi ornament tətbiq olunduğu sənət nümunəsini bəzəməklə yanaşı, həm də onun məzmununun üzə çıxarılmasına xidmət edir. Elə buna görə də ornament öz məzmunu, forması və rəngi ilə sənət əsəri ilə sıx əlaqədə olur və onunla vəhdət təşkil edir.

Xalçalarda istifadə olunan ornamentlər çox müxtəlif olsa da, onları 5 qrupa bölmək olar:

1. Həndəsi ornamentlər
2. Nəbati ornamentlər
3. Stilizə olunmuş ornamentlər
4. Kalliqrafik ornamentlər
5. Emblem və simvol mahiyyətli ornamentlər.

*Təcrübi hissə*

*Tədqiqatın elmi yeniliyi:* Hal-hazırda bölgələrdə məsələn Şəmkir və Qazax regionlarında fəaliyyət göstərən xalça müəssisələrində istehsal olunan məmulatlar üzrə tədqiqatlar aparmışıq. Tədqiqat prosesində müqayisə edilən xalçaçılıq məktəbləri ilə Qazax ASC və Şəmkir ASC istehsalına aid nümunələrlin müqayisəli təhlili aparılmış və nümunələrdə fərqli cəhətlər, eyni zamanda kompozisiyalarda yeni stilizə edilmiş ornamentlərin istifadə edildiyini müşahidə etmişik.

*Tədqiqatın məqsədi:* Azərbaycan xalçalarının qruplar üzrə kompozisiyalarının xüsusiyyətlərini müqayisəli təhlil etmək və fərqli cəhətlərini aşkar etməkdir.

*Tədqiqatın obyekti:* Quba- Şirvan qrupu üzrə Bakı , Qarabağ və Qazax xalçalarıdır.

*Tədqiqat metodları*: nəzəri təcrübə və nəzəri müqayisəli təhlil metodlarıdır.

Azərbaycanda xalçaçılıq əsasən qrup və məktəblər üzrə təsnifatlaşdırılır və hər bir qrupun coğrafi şəraiti və yerli xüsusiyyətləri əsasında yaranıb inkişaf etmişdir. Azərbaycan xalçaları kompozisiya xüsusiyyətlərinə görə (naxış, kompozisiya, rəng həllinə görə) şərti olaraq 7 ixtisaslaşmış məktəblərə bölünür: Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz. Quba, Şirvan və Bakı məktəbləri texnoloji cəhətdən bir-birinə yaxın olmasına baxmayaraq, ornament cəhətdən bir o qədər də fərqlənirlər. *Quba* xalça mərkəzi üç hissəyə - dağlıq, dağətəyi və ovalıq hissələrə bölünür. Bu qrupa Quba, Qusar və Xaçmaz rayonları və bu rayonlara aid kəndlərdə (Qonaqkənd, Pirəbədil, Şahnəzərli və s.) fəaliyyət göstərən xalçaçılıq mərkəzləri aiddir. Quba qrupu xalçalarının kompozisiyası simmetrik quruluşa malikdir. Mərkəzi göllərdən ibarət olur və ornamental motivlərdə nəbati, stilizə olunmuş heyvan fiqurları üstünlük təşkil edir. Kənar haşiyələri bir neçə zolaqdan ibarətdir.

*Şirvan* qrupuna Şamaxı, İsmayıllı, Kürdəmir rayonlarıda fəaliyyət göstərən xalçaçılıq mərkəzləri aiddir. Bu qrupa daxil olan xalçalarda daha çox həndəsi ornamentlərdən – romb, ulduz motivlərindən istifadə olunur, göl sistemli kompozisiyalara az rast gəlinir, naxışlar ümumi sahəyə yayılmış olur. Rəng həllində zərif rəng keçidləri və kontrast rənglərdən daha çox istifadə olunur.

*Gəncə - Qazax* qrupuna Gəncə, Qazax, Tovuz, Şəmkir rayonları aidddir. Bu qrupun xalçaları göl sisteminə əsaslanan kompozisiya quruluşlu olur, göllər bir-birinin ardınca düzülür, naxışlarda daha çox “qartal”, “qurd başı” və başqa zoomorfik motivlər üstünlük təşkil edir, haşiyə zolağı qalın və çoxrəngli (polixrom) olur.

*Təbriz* qrupu xalçaları nəbati motivlərə və simmetrik kompozisiyaya əsaslanır.Ara sahədə göl (medalyon) və onu əhatə edən kompleks sahə naxışlarından ibarət olur. Ən məşhur nümunələr “Təbriz”, “ Sarab”, “Heris” xalçalarıdır.

Məqalədə əsasən Bakı, Qarabağ və Qazax xalçalarının kompozisiya quruluşu təhlil olunmuşdur.Azərbaycan xalçaçılıq məktəbinin mühüm tərkib hissəsi olan *Bakı qrupu* xalçaları özünəməxsus bədii-estetik və texniki xüsusiyyətləri ilə seçilir. Bu xalçalar əsasən Abşeron yarımadasında – Bakı, Maştağa, Qala, Nardaran, Pirşağı və s. kəndlərdə toxunmuşdur. Bakı xalçalarının kompozisiyası tez-tez mərkəzi medalyonlu və ya sahə-mədalyon sistemi əsasında qurulur. Bəzi xalçalarda ara sahə bəzəklərlə tamamilə örtülür, medalyonsuz tərtibat da mümkündür. Naxışlar adətən simmetrik qurulur və sahə boyunca ritmik şəkildə təkrarlanır. Bu, xalçaya statik və ahəngdar görünüş verir. Kompozisiyada həm

stilizə olunmuş güllər, həm də həndəsi fiqurlar geniş istifadə olunur. Xüsusilə "Buta", "Saxsı güllər", "Qarabağ gülü" və həndəsi motivlər önəmlidir. Bakı xalçalarında geniş əsas haşiyə və onu əhatələyən bir neçə ensiz kənar haşiyələr istifadə olunur. Haşiyə motivləri əsasən bitki ornamentləri və ya həndəsi naxışlardan ibarət olur. Rəng həllində mavi, tünd göy, qırmızı, qara, ağ və yaşıl, zəfəran sarısı rənglər üstünlük təşkil edir. Rənglərin ahəngi xalçanın kompozisiyasını daha da vurğulayır. Sahə bəzən kvadratlara və ya romblara bölünür, hər hissədə fərqli motiv yerləşdirilir. Bu yanaşma xalçaya mozaika təsiri verir. Bakı xalçalarında bəzən yerli memarlıq və məişət əşyalarına uyğunlaşdırılmış naxışlar görünür. Bu, xalçanın etnoqrafik və mədəni dəyərini artırır.



Şəkil 1. Bakı qrupu xalçası

Bakıda toxunan xalçaların ara sahəsi sürməyi, nadir hallarda qırmızı və şəkəri rənglərdən ibarət olur. Bakı xalçalarının kompozisiyasını adətən böyük dördbucaqlı göllər təşkil edir.

*Qarabağ qrupu* xalçaları Azərbaycan xalça sənətinin zəngin ənənələrini əks etdirən mühüm üslub xüsusiyyətlərinə malikdir. Bu xalçalar əsasən Qarabağ bölgəsində - Şuşa, Cəbrayıl, Füzuli, Ağdam, Xocavənd, Tərtər və digər ərazilərdə toxunmuşdur. Onların kompozisiyasında iri mərkəzi medalyonlar geniş yer tutur. Medalyonlar çox zaman romb, oval, gülabətli (çiçəkşəkilli) formada olur. Sahə ümumiyyətlə, tünd rəngli fonla verilir (tünd mavi, tünd qırmızı, qəhvəyi). Heyvanlar, quşlar, çiçəklər və nabatat ornamentləri kompozisiyanın əsas hissəsini təşkil edir. "Qasımuşağı", "Bədii", "Xanlıq", "Muradxanlı" kimi xalçalar bu motivlərlə zəngindir. Kompozisiyanın haşiyəsi çox zolaqlı olur: Ana haşiyədə açıq-aşkar simmetrik nizam qorunur. Digər haşiyələrdə tez-tez "sarmaşıq", "çəhrayı gül", "ilan izi" kimi ornamentlər istifadə olunur. Qarabağ xalçalarında simmetriya və ritm kompozisiyanın vacib struktur elementidir. Mərkəzdən kənarlara doğru nizamlı şəkildə düzülən motivlər bu harmoniyanı yaradır. Xalçalarda canlı və parlaq rənglər üstünlük təşkil edir: narıncı, qırmızı, yaşıl, mavi, ağ. Təbii boyalarla əldə edilən rənglər xalçanın estetik dəyərini artırır.

"Bülbülə", "Malıbəyli", "Çələbi" kimi xalçalar fərqli quruluşa malikdir. Bu müxtəliflik Qarabağ xalçaçılıq məktəbinin zənginliyini göstərir. Qarabağ xalçalarının kompozisiyası estetik gözəllik, ornamental zənginlik və regional xüsusiyyətlə. harmoniyası ilə seçilir. Bu xalçalar həm bədii, həm də mədəni baxımdan Azərbaycan xalçaçılığının şah əsərlərindən sayılır.



Şəkil 2. Qarabağ xalçası

*Qazax xalçaları* Azərbaycan xalçaçılıq məktəbinin Qazax bölgəsinə məxsus olan ənənəvi nümunələrini əhatə edir. Ara sahə – iri, dominant göl (güləbətin) motivi ilə bəzədilir. Bu motivlər çox vaxt həndəsi və simmetrik olur. Sahə düzümü – xalçanın sahəsi bir və ya bir neçə iri göllə və onların ətrafındakı xırda elementlərlə tamamlanır. Kənar haşiyələr – əsas və köməkçi haşiyələrdən ibarət olur. Haşiyələr çox vaxt zəncirvari, hörmə və ya dalğavari naxışlarla işlənir. Qazax xalçalarında parlaq və kontrast rənglərə üstünlük verilir. Ən çox istifadə olunan rənglər: qırmızı, tünd mavi, yaşıl, sarı və qara. Rənglərin seçimi bölgənin təbii boyaq maddələrinə əsaslanır. Həndəsi motivlər üstünlük təşkil edir: romblar, xaçşəkilli ornamentlər, səkkizguşəli ulduzlar. Zoomorf (heyvanlara aid) və antropomorf (insana aid) naxışlara az-az rast gəlinir. Ənənəvi simvolik anlamlar daşıyan motivlər: "gözmuncuğu", "əjdaha", "qanadlı heyvanlar", "göl" motivləri. Kompozisiyada mərkəzilik və simmetriya prinsipi əsasdır. Hər iki ox boyunca simmetrik motivlər yerləşdirilir. Mərkəzdən kənara doğru nizamlı şəkildə naxışlar təkrarlanır. Kompozisiyada sadəlik və aydınlıq müşahidə olunur. Düyünləmə texnikası – türk (simmetrik) düyünü istifadə olunur. Qazax xalçaları qalın toxunuşu və yüksək xovlu olması ilə seçilir.Ən məşhur Qazax xalçaları – "Qazax", "Əskipara", "Çaylı", "Dəllər", "Borchalı" və s. – bu kompozisiya xüsusiyyətlərinin müxtəlif variasiyalarını daşıyır. "Qazax-şəhər" xalçası toxucular tərəfindən Ağqoyunlu xalçası adlandırılır. Xalçanın sxemi, koloriti, rənglərin harmonikliyi türkmən incəsənəti nümunələrini xatırladır.



a) Ağqoyunlu dizaynlı Qazax xalçası
b) Əjdahalı xalçası
c) Qaraman üslublu Qazax xalçası

Şəkil 3 a, b, c.

Qazax-şəhər" xalçalarının ikinci növü toxucular tərəfindən çox vaxt *"Əjdahalı"* adlandırılır. *Əjdaha* sözü altında altında xalçanın ara hissəsinin kənarlarında və ya

gölün ətrafında təsvir edilən qeyri-müəyyən formalı fiqurlar nəzərdə tutulurdu. "Qazax-şəhər" xalçalarını xalçaçılar "Qaraman xalçaları" adlandırırlar. Ara sahədə bir-birinin ardınca yerləşdirilmiş göllər forma və dizaynına görə xalçaçılar tərəfindən beşik adlandırılırlar. Sadə formaya malik bu göllər arzu və istəyi simvolizə edir.

*Nəticə*

Məqalədə nəzəri təcrübə metodundan istifadə edərək Azərbaycan əl xalçalarının Quba-Şirvan, Qarabağ və Gəncə-Qazax məktəbləri üzrə kompozisiyalarının müqayisəli təhlli aparılmış və istifadə olunan ornamentlərə və rəng koloritinə görə oxşar və fərqli cəhətləri göstərlmişdir.

*Oxşar cəhətləri:* Göstərilən məktəblərin xalçalarının oxşar cəhətləri ondan ibarətdir ki, bu xalçalarda ornamentlərdən, göllərdən, müəyyyən və ya qeyri-müəyyən formalı fiqurlardan, elementlərdən istifadə olunur.

*Fərqli cəhətləri:* Bu xalçalar istifadə olunan ornamentlərə görə, rəng koloritinə və naxış elementlərinə görə fərqlənirlər. Məsələn: Quba, Şirvan, Bakı xalçalarında ən çox həndəsi ornamentlərdən istifadə olunur. Xalçaların kompozisiya quruluşunda qızılı sarı, ağ, sürməyi və s. rənglər üstünlük təşkil edir. Bakı qrupu xalçaları ən azı 4-5 göldən ibarət olur.

Qarabağ qrupu xalçalarında əsasən nəbati ornamentlərdən, gül, ləçək, budaq kimi naxış elementlərindən istifadə olunur. Bundan başqa quş, at, it, kimi ev heyvanlarının təsvirlərindən, qoç buynuzu, balığı təsvir edən naxış elementlərindən istifadə edilir. Qarabağ xalçalarında ən çox əlvan (qırmızı, yaşıl, sarı və s.) rənglərdən istifadə edilir. Bu da Qarabağın zəngin təbiəti ilə əlqədardır.

Qazax-Gəncə qrupu xalçalarının kompozisisiya quruluşunda abstrakt, həndəsi, stilizə olunmuş ornamentlər üstünlük təşkil edir. Xalçalar üzərində quş, əjdaha kimi mifoloji heyvan motivləri, mürəkkəb həndəsi elementlər sınıq xətt, çərxifələk, çoxbucaqlı ulduz, qoşa buynuz kimi naxış elementləri daha çox istifadə olunur. Təqdirə layiqdir ki, Azərbaycan xalçalarının məktəblər üzrə qrupları çoxdur. Bu məqalədə yalnız üç qrup üzrə təhlil aparılmışdır. Gələcək məqalələrdə digər qruplar üzrə xalçaların kompozisiyalarının müqayisəli təhlilinin aparılması nəzərdə tutulur.

ƏDƏBİYYAT

1. Tahirov K. “Azərbaycan xalçası”. Bakı, 2012, s. 6.
2. Hüseynov M. “Xalça sənətində haşiyə elementləri və onların quruluşu”. Bakı, “Təhsil”, 2012, s. 16.

УДК 745.523 (479.24)

*Т.Г.Мирзоев, Р.Х.Асланова, С.Д.Мамедова*
*Министерство Науки и Образования АР*
*Азербайджанский Технологический Университет, г. Гянджа*

## ОСОБЕННОСТИ КОМПОЗИЦИИ АЗЕРБАЙДЖАНСКИХ КОВРОВ

*РЕЗЮМЕ*

*Ключевые слова:* композиция, орнамент, ковер, рисунок

В статье представлена информация о художественных особенностях элементах композиции, цветовом решении, орнаментах и композициях азербайджанских ручных ковров по группам.

UDC 745.523 ( 479.24)

*T.H.Mirzayev, R. X. Aslanova, S.C.Mammadova*
*Ministry of Science and Education of the Republic of Azerbaijan*
*Azerbaijan Technological University, Ganja*

FEATURES OF THE COMPOSITION OF AZERBAIJANI CARPETS
*SUMMARY*

*Keynwords:* kompozision, ornament, carpet, pattern

The article provides information about the artistic features, compositional elements, colorschemes,ornaments and compositions of Azerbaijani hand – woven carpets by groups.

***Daxil oldu: 23.06.2025-ci il***